

*Mahmud QACAR*

## *QƏLƏMİNƏ SIĞINIB*

*İstedadlı qələm sahibi Faiq Qismətoğlunu yaxın vaxtlarda layiq görüldüyü "Əməkdar jurnalist" fəxri adı münasibətiylə təbrik edərkən keçirdiyim duyğular*

**... Qəmli Arazı üçün,**
**Açdığı yazı üçün...**
**Haqqın bərpası üçün**
**Qələminə sığınıb.**

**Vətənçün candan keçən**
**Çingizlər yolun seçən,**
**Ustad əldən su içən**
**Qələminə sığınıb.**

**Can üçün can haraylı,**
**Düyün açan haraylı -**
**Şuşa, Laçın haraylı**
**Qələminə sığınıb.**

**"Ərgünəş"ə ucalan,**
**Şimşək kimi saçılan;**
**Bəhmənlidən güc alan**
**Qələminə sığınıb.**

**Sinə gərib çətinə,**
**Sözü bütöv mətinə -**
**"Ədalət" qəzetinə,**
**Qələminə sığınıb.**

**Köksündə oda layiq,**
**Fəxr edən Ata - layiq...**
**Aldığı ada layiq**
**Qələminə sığınıb.**

**Sirrin açar-güvənən,**
**Öpüb qucar-güvənən;**
**Mahmud Qacar güvənən**
**Qələminə sığınıb.**

## *İRƏLİ!*

*Torpaqlarımızın azadlığı uğrunda apardığımız indiki Böyük Vətən müharibəsində, Qarabağ uğrunda döyüşlərdə əfsanəvi hünəriylə dünyanı mat qoyaraq yeni tarix yazan qüdrətli Milli Ordumuzun igid zabit və əsgərlərinə*

**Müqəddəs əmanət-torpaq naminə,**
**Qoxladığın çiçək, yarpaq naminə;**
**Bu bayraq, bu şərəf, bu haqq naminə**
**Göydədir ananın odur bir əli --**
**İrəli, gözünə dönüm, irəli!**

**Yolunu hər əsir, girov gözləyir,**
**Ərgünəş, Dəlidağ, Murov gözləyir;**
**Qanı sənən halal bir "ov" gözləyir**
**Üzü sərt qayaya, daşa dirəli -**
**İrəli, gözünə dönüm, irəli!**

**Yağıya əlinin suyunu göstər,**
**Qazdığı o dərin quyunu göstər;**
**Ata-babasının "toyunu" göstər**
**Əllərin yeni bir Cavanşir əli -**
**İrəli, gözünə dönüm, irəli!**

**Döyüşlərdə cəngavər tək boy at sən,**
**Haqq səsinlə yeri-göyü oyat sən;**
**Ürəyini silahınla ovut sən**
**İncik bağça-bağlı, küskün dərəli -**
**İrəli, gözünə dönüm, irəli!**

**Daim ürəyində yurd közü olsun,**
**Gözlərin səngərdə qurd gözü olsun;**
**Köməyin Tanrının qoy özü olsun**
**Qeyrətlə, silahla dərdi çarəli -**
**İrəli, gözünə dönüm, irəli!**

**Qədəmin kövrəltsin Şuşa qalasın,**
**Qələbə tonqalın qoşa qalasın!**
**Hünərini görüb qurdun ulasın**
**Çoxdan gözləyirik dəli nərəni -**
**İrəli, gözünə dönüm, irəli!**
**Aslanım, ruh cana qovuşan andır,**
**Qarabağ anamız Azərbaycandır!**
**Ona kəc baxanı kül elə, yandır**
**Əmr edir O adı, amalı Ali -**
**İrəli, gözünə dönüm, irəli!**